**UOT 654.19; 002.2**

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARININ KİTABXANA-İNFORMASİYA RESURSLARININ YERLƏŞMƏSİ VƏ KADR TƏMİNATININ MÜASİR VƏZİYYƏTİ

**İ.Z.BAYRAMOVA**
***Bakı Dövlət Universiteti***
***irade8@ rambler.ru***

*Məqalədə Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya resurslarının yerləşməsi, inkişafı və kitabxanaların kadr təminatının müasir vəziyyəti, statistik materiallar əsasında təhlil olunmuşdur.*

**Açar sözlər**: Kitabxana-informasiya təminatı, informasiya resursları, kadr təminatı, kitabxanaların maddi-texniki bazası

Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin son illərdəki inkişafı bu sahəyə göstərilən dövlət qayğısının təzahürüdür. Respublika Prezidenti İlham Əliyevin regionların inkişafı ilə bağlı olaraq imzaladığı bir çox qanun və sərəncamlar, regional inkişafın ən mühüm tərkib hissələrindən birinin-ölkənin müxtəlif regionlarında fəaliyyət göstərən və əhalinin intellektual-mədəni potensialının yüksəldilməsində önəmli yer tutan kitabxanaların inkişafını da zəruri edir. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 mart tarixli sərəncamı ilə "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olundu. Bu Qanunda kitabxanaların "elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssiəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən,onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mədəni potensialının inkişafına xidmət göstərən sosial institut" olması göstərilmişdir (5, 3-16**).** Qanunun qəbul olunmasından keçən dövr ərzində kitabxana-informasiya sahəsinin inkişafında müsbət irəliləyişlər əldə olundu. Lakin kitabxanaların inkişafını, onların yerləşdikləri iqtisadi və inzibati rayonların inkişafından ayrı təsəvvür etmək qeyri-mümkündür. Yalnız regionların iqtisadi potensialının yüksəldilməsi, yeni iş yerlərinin açılması və.s kitabxana-informasiya sahəsinin müasir inkişafı və gələcək perspektivlərini müəyyən edə bilər.

Azərbaycan Respublikasının Prezidenti I. Əliyev 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərman imzaladı **(**1**)**. Bu sərəncam qarşıda duran vəzifələrin həll ediməsində mühüm əhəmiyyət kəsb etdi. Dövlət Proqramı qəbul edilərkən, ölkədə regional inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuş, regionların sosial-iqtisadi inkişafının tərkib hissəsi kimi, həmin regionlarda yerləşən kitabxana infrastrukturunun gələcək inkişaf strategiyası da nəzərə alınmışdı. Birinci Dövlət Proqramının verilməsindən keçən 5 il ərzində, regionlarda iqtisadiyyatın inkişafına, yeni iş yerlərinin açılmasına, əhalinin işsizlik səviyyəsinin minimuma endirilməsinə və s. nail olunsa da, hələ də görüləcək işlər çox idi. Respublikamızın 10 iqtisadi rayonunun hər birində, o cümlədən Bakı şəhərində quruculuq işlərinin davam etdirilməsi, iqtisadi potensialın daha da gücləndirilməsi üçün yeni bir inkişaf strategiyası hazırlandı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixində imzaladığı "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" regionların sosial-iqtisadi inkişafı ilə paralel olaraq, regionlarda yerləşən kitabxana-informasiya sahəsinin daha da yaxşılaşdırılması üçün qarşıya bir çox məsələlər qoydu **(**2).

Dövlət Proqramları əsasən aşağıdakı 10 iqtisadi rayon üzrə tərtib edilmişdir: 1) Abşeron iqtisadi rayonu; 2) Gəncə-Qazax iqtisadi rayonu; 3) Şəki-Zaqatala iqtisadi rayonu; 4) Lənkəran iqtisadi rayonu; 5) Quba-Xaçmaz iqtisadi rayonu; 6) Aran iqtisadi rayonu; 7) Dağlıq Qarabağ iqtisadi rayonu; 8) Kəlbəcər-Laçın iqtisadi rayonu; 9) Dağlıq Şirvan iqtisadi rayonu; 10) Naxçıvan iqtisadi rayonu.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (2007), "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq olunması haqqında" (2008) sərəncamları ölkə kitabxanalarına göstərilən dövlət qayğısının nəticəsi idi **(**3; 4**)**.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq olunması haqqında" (2008) sərəncamı Azərbaycan kitabxana işi tarixində ilk dəfə olaraq öz məzmunu, əhatə dairəsi, konkretliyi, həyatiliyi ilə fərqlənən kitabxana işinin məqsəd və vəzifələrini, kitabxanaların ümumaçıq olmasını, inkişaf istiqamətini, maddi-texniki bazasının möhkəmlənməsini, əhatəliyini, kitabxana xidmətinin planauyğun elmi əsaslar üzərində qurulmasını, dövlət tərəfindən maliyyələşdirilməsini, görüləcək işlərin konkret icra tarixini dəqiq rəqəmlərlə göstərən bu sənəd mühüm əhəmiyyət kəsb edir. Proqramda ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən hadisələr, keçid dövrünün böyük çətinliklərinin kitabxana işinə olduqca mənfi təsir göstərməsi, kitab nəşri və kitab təchizatı sisteminin iflic vəziyyətə düşməsi, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsində və maliyyələşdirilməsində ciddi problemlər yaranması konkret

faktlarla göstərilmişdir. Sənəddə göstərilir ki, 1990-cı ildə respublika üzrə kütləvi kitabxanaların kitab fondu 45,3 milyon, 2002-ci ildə 36,9 milyon, 2003-cü ildə 36,8 milyon nüsxəyə enmiş, 2004-cü ildə bu rəqəm 36,5 milyon nüsxə təşkil etmişdir. Bunun əsas səbəblərindən biri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə 4 milyon nüsxə kitab fonduna malik 927 kitabxananın məhv edilməsi, ideoloji cəhətdən köhnəlmiş kitabların kitabxanalardan çıxarılması və keçiq dövrünün maliyyə çətinliyi olmuşdur (7, 384).

Dövlət Proqramının qarşıya qoyduğu tələblərə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu ilin sentyabr ayının 1-dən 10-a qədər Respublika ərazisindəki kitabxanalarda monitorinq keçirilmişdir. Monitorinqin keçirilməsində əsas məqsəd əhaliyə göstərilən kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsi, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsində onun dünya standartları səviyyəsinə çatdırılması, elektron informasiya resurslarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, kitabxanaların kadr təminatının yaxşılaşdırılması, habelə, fasiləsiz təhsilin təmin edilməsi üçün şərait yaradılması istiqamətlərində aparılan işlərin vəziyyətini öyrənməkdən ibarət olmuşdur. Monitorinqin keçirilməsindən sonra, “Kitabxanaların fəaliyyəti haqqında” ststistik müayinənin nəticələri barədə statistik bülleten nəşr edilmişdir **(**6**)**. Monitorinqin nəticələrinə əsasən, müəyyən olundu ki, kütləvi, uşaq, gənclər, elmi, elmi-köməkçi, digər ixtisaslaşdırılmış, həmçinin müəssisələrin nəzdində olan 8507 kitabxananın 2322-si və ya 27,3 faizi şəhər yerlərində, 6185-i və ya 72,7 faizi kənd yerlərindədir. Tabeçilik baxımından onların 50,7 faizi Təhsil Nazirliyinin (48,0 faizi ümumtəhsil, 2,7 faizi ilk peşə- ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində), 46,6 faizi Mədəniyyət və Turizm Nazirliyinin (44,8 faizi kütləvi kitabxanalarda, 1,8 faizi musiqi məktəblərində) 2,7 faizi isə digər müəssisələrin nəzdində fəaliyyət göstərir. Kitabxanaların 111 milyon nüsxədən ibarət olan fondunun 80,5 faizini kitablar, 5,4 faizini qəzet və jurnallar, 14,1 faizini isə digər materiallar təşkil edir ki, onların da 72,8 faizi şəhər, 27,2 faizi isə kənd yerlərində fəaliyyət göstərən kitabxanaların payına düşür. Kitabxana fondunun 34,6 faizi ümumtəhsil məktəblərində, 32 faizi Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan kitabxanalarda, 21,4 faizi elmi və elmi-texniki kitabxanalarda, 12 faizi isə digər müəssisə və təşkilatların kitabxanalarındadır. Məlumdur ki, ölkədə kitabxana-informasiya fəaliyyətinin təşkili və idarə olunması, kitabxana-informasiya resurslarının formalaşdırılması və istifadəsinin təşkili bilavasitə, kitabxana mütəxəssislərinin təhsil səviyyəsindən asılıdır. Azərbaycanda kitabxanaların kadr təminatı, onun tərkibi, ayrı-ayrı regionlarda kadrların yerləşdirilməsi vəziyyəti kitabxanaşünaslıq elmində müstəqil tədqiqat obyekti olmamışdır. Bu baxımdan təqdim edilən məqalə, ilk təşəbbüs kimi respublikanın regionlarında və ayrı-ayrı inzibati rayonlarında kadrların yerləşdirilməsi vəziyyətini təhlil etmək və ümumi mənzərəsini yaratmaq məqsədilə yazılmışdır.

Kitabxanaların fəaliyyəti kadrların mövcudluğu, onların peşəkar hazırlığı, təcrübəsi ilə müəyyən edilir. Kitabxana kadrlarının bir-birinə bağlı iki xarakteristika qrupu fərqləndirilir: 1) regionların kitabxana kadrları ilə (10 minlik əhaliyə) təminat səviyyəsi; 2) kadrların tərkibinin kitabxana xidməti səviyyəsinə təsir dərəcəsi (9, 74).

Monitorinqin nəticələri göstərir ki, Azərbaycan Respublikasının kitabxanalarında 12729 nəfər işçi çalışır ki, onların da 8727 nəfəri mütəxəssislərdir. Kitabxanaçı korpusunun əsas komponenti ali və orta ixtisaslı kadrlardır. Onların 18,1%-i ali ixtisas təhsillidir. Ali ixtisas təhsilli kadrların 87%-i şəhər, 13%-i isə kənd yaşayış yerlərindəki kitabxanalarda çalışır. Kitabxanalarda çalışanların 4002 nəfəri texniki işçilərdir. Şəhər və kənd kitabxana şəbəkələrinin bir-birindən fərqləndirilməsi, oxucuya göstərilən kitabxana-informasiya xidmətindən asılıdır. Kitabxana işçilərinin şəhər və kənd yerlərinə görə bölgüsü belədir: şəhər yerləri üzrə - 45,7%; kənd yerləri üzrə - 54,3%; O cümlədən, yaşayış yerləri üzrə mütəxəssislərin yerləşməsi aşağıdakı kimidir: şəhər yerləri üzrə mütəxəssislər - 52,7%; kənd yerləri üzrə mütəxəssislər - 47,3%; Kitabxana işçilərinin təhsil səviyyəsinə görə ümumi mənzərəsi aşağıdakı kimi olmuşdur: 1) ali ixtisas təhsillilər-1579 nəfər; 2) ali qeyri-ixtisas təhsillilər - 1318 nəfər; 3) orta ixtisas təhsillilər - 1767 nəfər; 4) orta qeyri-ixtisas təhsillilər - 1261 nəfər; 5) ümumi orta təhsillilər - 2802 nəfər. Bu cədvəldən də məlum olduğu kimi, orta ixtisas təhsilli ümumi mütəxəssis korpusu 20,2% təşkil edir. Orta ixtisas təhsilli kitabxana işçilərinin yerləşməsi şəhər və kənd yaşayış məskənləri üzrə nisbətən normaldır. Belə ki, şəhər kitabxanaları üzrə bu rəqəm 53,6%, kənd kitabxanaları üzrə - 46,4%-dir. Kitabxana işçilərinin 15,1%-ni ali qeyri-ixtisas təhsillilər təşkil edir. Onların 76,6%-i şəhər, 23,4%-i kənd kitabxanalarında çalışır. Qeyri orta-ixtisas təhsilli işçilər isə 14,5% təşkil edir. Onlar şəhər və kənd yaşayış yerlərində demək olar ki, bərabər paylanmışdır. Ümumi orta təhsilli işçilərin xüsusi çəkisi 32,1% təşkil edir. Onların 77,1%- i kənd yerlərində, 22,9%-i isə şəhər kitabxanalarında çalışır (6, 3-4). Əgər kitabxanaçı-biblioqrafların biblioqrafik-informasiya xidməti sahəsindəki fəaliyyətini, kitabxanaların fondunu, hər oxucuya düşən kitab sayını qısaca olaraq analiz etsək, onda belə bir nəticəyə gələ bilərik: 1) əhalinin neçə faizinin kitabxana oxucuları olması; 2) oxucularin sorğularının nə dərəcədə ödənilməsi; 3) hər kitabxanaçı-biblioqrafın neçə nəfər oxucuya xidmət etməsi; 4) hər oxucuya neçə nüsxə kitab düşməsi. Bütün bu proseslər kitabxana-informasiya xidmətinin normativlərini müəyyənləşdirdiyi kimi, həm də kitabxanaların fəaliyyətlərinin qiymətləndirilməsinə də imkan verir. Kitabxanaların missiyasının müvəffəqiyyətlə həyata keçirilməsi onların kadr təminatından birbaşa asılıdır. Azərbaycan Respublikasının regionlarında kadrların yerləşmə səviyyəsi (Bakı şəhəri də daxil olmaqla), belədir: 1) Abşeron iqtisadi rayonu-169 nəfər (1,9%); o cümlədən, Bakı şəhəri - 3158 nəfər (36,1%); 2) Aran iqtisadi rayonu - 1932 nəfər (22,1%); 3) Gəncə-Qazax iqtisadi rayonu -1125 nəfər (12,8%); 4) Lənkəran iqtisadi rayonu-734 nəfər (8,4%); 5) Naxçıvan iqtisadi rayonu -691

nəfər (7,9%); 6) Şəki-Zaqatala iqtisadi rayonu - 640 nəfər (7,3%); 7) Quba-Xaçmaz iqtisadi rayonu - 569 nəfər (6,5%); 8) Dağlıq Şirvan iqtisadi rayonu-338 nəfər (3,8%); 9) Yuxarı Qarabağ iqtisadi rayonu - 560 nəfər (6,4%); 10) Kəlbəcər-Laçın iqtisadi rayonu - 369 nəfər (4,2%).

Regionlarda kitabxana-informasiya xidmətinin oxucuların sorğularına tam cavab verməsi üçün, regionların demoqrafik vəziyyəti, özünəməxsus təbiəti, sosial-iqtisadi və mədəni inkişafı nəzərə alınmalıdır. Təbii ki, hər regionun iqtisadiyyatı, əhalisinin artım səviyyəsi, təhsil və mədəni inkişafı imkan verir ki, bu proseslərə uyğun şəkildə kitabxanaların cəmiyyətin həyatındakı rolu daha da artırılsın. Etiraf etmək lazımdır ki, hazırda kitabxanalarda, xüsusilə də regionlarda fəaliyyət göstərən kitabxanalarda, kadrların yarıdan çoxu ixtisaslı kitabxanaçı-biblioqraflar deyil. İndiki şəraitdə əgər kütləvi kitabxana işçilərinin cəmi 2-3%-i ixtisaslı kadrlardırsa, bu o deməkdir ki, bu sahədə görüləcək işlər hələ çoxdur. Respublikamızın kənd və şəhər yaşayış məntəqələrində yerləşən kitabxanaların kadr potensialı aşağıda verilmişdir: kənd kitabxanalarında çalışan mütəxəssislər: ali ixtisas təhsillilər - 206 nəfər; ali qeyri-ixtisas təhsillilər - 308 nəfər; orta ixtisas təhsillilər - 820 nəfər; orta qeyri-ixtisas təhsillilər - 635 nəfər; ümumi orta təhsillilər - 2160 nəfər; Şəhər kitabxanalarında mütəxəssislərin təhsil səviyyələrinə görə bölgüsü belədir: ali ixtisas təhsillilər - 1373nəfər; ali qeyri-ixtisas təhsillilər - 1010 nəfər; orta ixtisas təhsillilər - 947 nəfər; orta qeyri-ixtisas təhsillilər - 626 nəfər; ümumi orta təhsillilər - 642 nəfər (6, 22).

Yuxarıdakılara əsasən, kənd və şəhər kitabxanalarında işləyən mütəxəssislərin təhsil səviyyələrini müqayisə edək: ali ixtisas təhsilli mütəxəssislərin qarşılıqlı müqayisəsi zamanı məlum olur ki, şəhər kitabxanalarında çalışan ali ixtisas təhsilli kitabxanaçı-biblioqrafların sayı kənd kitabxanalarında çalışanlardan 6,6 dəfədən çoxdur. Bu müqayisəli nəticə ali qeyri-ixtisas təhsillilər arasında - 3, orta ixtisas təhsillilər arasında isə - 1 dəfədən çoxdur. Orta qeyri-ixtisas təhsilli mütəxəssisləri müqayisə edərkən, kənd kitabxanalarında çalışanların bu sahədə cüzi dərəcədə üstünlük təşkil etdikləri məlum olur. Eyni zamanda aydın olur ki, kənd kitabxanalarında çalışanlar arasında ümumi orta təhsillilər şəhər kitabxanalarında eyni kateqoriya üzrə çalışanlardan 3 dəfədən çoxdur. Şəhər və kənd kitabxana şəbəkələrinin bir-birindən fərqləndirilməsi, oxucuya göstərilən kitabxana-informasiya xidmətindən asılıdır.

Kitabxanaların kadr təminatının vəziyyətini Abşeron iqtisadi rayonunun nümunəsi əsasında təhlil edək: Abşeron iqtisadi rayonuna Bakı şəhəri, Sumqayıt şəhəri, Abşeron və Xızı iqtisadi inzibati rayonları daxildir. Abşeron iqtisadi rayonunda (Bakı şəhəri istisna olmaqla) cəmi 182 kitabxana var. Bu kitabxanaların 147-i (80,8%) şəhər yerlərində, 35-i (19,2%) kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Onların 51-i (28,1%) Mədəniyyət və Turizm Nazirliyinin, 100-ü (55%) Təhsil Nazirliyinin tabeliyindədir. Kitabxanaların informasiya resurslarının həcmi 3257798 nüsxədir. İqtisadi rayon üzrə 169 nəfər kitabxana mütəxəssisi var. Onların 26 nəfəri (15,4%) ali ixtisas, 37 nə-

fəri (21,9%) ali qeyri-ixtisas, 39 nəfəri (23,1%) orta ixtisas, 28 nəfəri (16,6%) orta qeyri-ixtisas, 39 nəfəri (23%) ümumi orta təhsilli kadrlardır (6). Bakı şəhərində 3158 kitabxana mütəxəssisi fəaliyyət göstərir. Bu da ölkə kitabxana-informasiya işçiləri korpusunun 36,1 %-ni təşkil edir. Bütövlükdə, ölkə kitabxana resurslarının 8,4 %-nin, kitabxana-informasiya ehtiyatlarının 49,8 %-nin Bakı şəhərində yerləşməsini nəzərə alsaq, onda paytaxtın kitabxanaçı kadrlarla təminatını ölkənin başqa regionları ilə müqayisədə normal hesab etmək olar. Bakı şəhərində fəaliyyət göstərən kitabxana işçilərinin 62%-i Səbail, Yasamal və Nəsimi rayonlarının payına düşür. Bu da həmin rayonların ümumən ölkənin, o cümlədən Bakı şəhərinin mədəni, elmi, tədris və informasiya arealında mühüm rol oynaması ilə bilavasitə əlaqədardır. Kitabxanaçı kadrlarla təminat baxımından sonuncu yeri Qaradağ rayonunda fəaliyyət göstərən kitabxanalar tutur. Kitabxanaçı-biblioqraf kadrlar korpusunun aparıcı qüvvəsi təbii ki, ali ixtisas təhsilli mütəxəssislərdir. Aparılan təhlillər göstərir ki, Bakı şəhərinin kitabxanalarında çalışan işçilərin 37,8 %-i, başqa sözlə 1186 nəfəri ali ixtisas təhsilli kadrlardır. Bu da ölkənin regionları ilə müqayisədə ən yüksək göstəricidir və respublikanın orta göstəricisindən təqribən 2 dəfədən də (18,1) yüksəkdir. Bakı şəhərində kiatbxanaların kadr tərkibində orta ixtisas təhsilli işçilər mühüm yer tutur. Ölkə üzrə bu kadrların xüsusi çəkisi 20,2% təşkil edir. Bakı şəhərində orta ixtisas təhsilli kadrların sayı ümumi ölkə göstəricisi ilə üst-üstə düşür (20,5 %). Lakin inzibati rayonlar üzrə bu proses 12-36 % arasında dəyişir (12, 58-71).

Respublikamızın, ərazisinə görə, ən böyük iqtisadi rayonu olan Aran iqtisadi rayonunun tərkibinə Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad inzibati rayonları, Şirvan, Mingəçevir, Yevlax şəhərləri daxildir. Aran iqtisadi rayonunda 1988 kitabxana var. Onların 417-i (21%) şəhər yerlərində, 1571-i (79%) kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Bu kitabxanaların 1041-i (52,4%) Mədəniyyət və Turizm Nazirliyinin, 867-i (43,5%) Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. İqtisadi rayonda 1932 nəfər kitabxana mütəxəssisi var. Onlar təhsil səviyyələrinə görə belə bölünür: ali ixtisaslılar 133 nəfər (6,9%), ali qeyri-ixtisaslılar 132 nəfər (6,8%), orta ixtisaslılar 437 nəfər (22,6%), orta qeyri-ixtisaslılar 306 nəfər (15,8%), ümumi orta təhsillilər 924 nəfər (47,9%). Kadrların təhsil səviyyələrinə görə bölgüsü zamanı məlum olur ki, digər region kitabxanalarında olduğu kimi,bu iqtisadi regionda da ümumi orta təhsilli kadrlar üstünlük təşkil edir. Bu isə regionlarda əhalinin informasiya təminatının ödənilməsində öz mənfi təsirini göstərir.

Azərbaycan Respublikasının ikinci ən böyük iqtisadi rayonu Gəncə-Qazaxdır. İqtisadi rayonun tərkibinə Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz inzibati rayonları, Naftalan və Gəncə şəhərləri daxildir. İqtisadi rayonda cəmi 1265 kitabxana var. Onlardan 271-i (21,4%) şəhər yerlərində, 994-ü (78,6%) kənd yerlərində yerləşir (6, 23) Gəncə-Qazax iqtisadi rayonunda yerləşən kitabxanaların 652-i (51,2%)

Mədəniyyət və Turizm Nazirliyinin, 551-i (43,6%) Təhsil Nazirliyinin tabeliyindədir. İqtisadi rayonun kitabxanalarının informasiya resursları cəmi 11773454 nüsxədir. İqtisadi rayonda cəmi 1125 nəfər kitabxana mütəxəssisi var. Onların təhsil səviyyələrinə görə bölgüsü belədir: 89 nəfər (7,9%) ali ixtisas, 129 nəfər (11,5%) ali qeyri-ixtisas, 225 nəfər (20,0%) orta ixtisas, 173 nəfər (15,4%) orta qeyri-ixtisas, 509 nəfər (45,2%) ümumi orta təhsilli işçilərdir. Ali ixtisas təhsilli mütəxəssilərin inzibati rayonlar üzrə bölgüsü zamanı ali ixtisaslı kitabxana mütəxəssislərinin az, orta təhsilli kadrların isə daha çox olması məlum olur. Mütəxəssislərin inzibati rayonlar üzrə bölgüsünə əsasən, Ağstafa rayonunda 94 nəfər, Daşkəsən rayonunda 106 nəfər, Gədəbəy rayonunda 143 nəfər, Göranboy rayonunda 125 nəfər, Göygöl rayonunda 94 nəfər, Qazax rayonunda 100 nəfər, Samux rayonunda 108 nəfər, Şəmkir rayonunda 144 nəfər, Tovuz rayonunda 113 nəfər, Naftalan şəhərində 5 nəfər, Gəncə şəhərində 93 nəfər mütəxəssis olması aydın olur.

Azərbaycan Respublikasının Lənkəran iqtisadi rayonunun tərkibinə Astara, Cəlilabad, Lerik, Masallı, Lənkəran inzibati rayonları daxildir. İqtisadi rayonda cəmi 994 kitabxana var. Bu kitabxanaların 135-i (13,6%) şəhər yerlərində, 859-u (86,4%) kənd yerlərində fəaliyyət göstərir. Kitabxanaların 479-u (48,2%) Mədəniyyət və Turizm Nazirliyinin, 490-ı (49,3%) Təhsil Nazirliyinin tabeliyindədir. Kitabxanaların informasiya resursları cəmi 6578166 nüsxədir. İqtisadi rayonun kitabxana mütəxəssisləri 734 nəfərdir. Onların təhsil səviyyələrinə görə bölgüsü belədir: ali ixtisas təhsillilər 53 nəfər (7,2%), ali qeyri-ixtisas təhsillilər 43 nəfər (5,9%), orta ixtisas təhsilliər 125 nəfər (17%), orta qeyri-ixtisas təhsillilər 158 nəfər (21,5%), ümumi orta təhsillilər 355 nəfər (48,4%). İqtisadi rayonun kitabxanaçı kadr korpusunun əsasını orta ixtisaslı, orta qeyri-ixtisaslı və ümumi orta təhsilli kadrlar təşkil edir (86,4%). İqtisadi rayonun tərkibinə daxil olan inzibati rayonlarda da bu göstərici demək olar ki, cüzi fərqlə eynidir. Yəni əslində, bütün iqtisadi rayonların kitabxançı kadrlarla təminatında olduğu kimi, bu rayonda da ixtisaslı kadrlara böyük ehtiyac var.

Naxçıvan iqtisadi rayonunun tərkibinə Ordubad, Culfa, Babək, Şahbuz, Şərur, Sədərək, Kəngərli inzibati rayonları və Naxçıvan şəhəri daxildir. Regiondakı 491 kitabxanadan 94-ü (19,1%) şəhər yerlərində, 397-i (80,9%) kənd yerlərində yerləşir. Bu kitabxanaların 234 (47,7%) Mədəniyyət və Turizm Nazirliyi sisteminə və cüzi bir hissəsi də digər müəssisələrə məxsusdur. Kitabxanaların ümumi informasiya resursları 4696103 nüsxə təşkil edir. Naxçıvan iqtisadi rayonunda cəmi 691 nəfər kitabxana mütəxəssisi var. Onların 33%-i ali ixtisas, 10,1%-i orta ixtisas, 10,4%-i ali qeyri-ixtisas, 9,8%-i orta qeyri-ixtisaslı kadrlardır, yəni ümumilikdə, 20,2%-təşkil edir. Kitabxana işçilərinin 64,9 %-i isə orta təhsillilərdən ibarətdir ki, bu da ölkə üzrə olan göstəricilərdən 2 dəfə yüksəkdir. Bu vəziyyət Sədərək rayonunda (86,6%), Culfa rayonunda (75,5%) və Babək rayonunda (73,0%) daha kəskin şəkildə özünü göstərir. Lakin ali ixtisas təhsilli mütəxəsislərin xüsusi çəkisinin ölkə üzrə olan göstəricidən (18,1%) yüksək olmasını da (33%) xüsusi qeyd etmək

lazımdır. Orta ixtisaslı kadrların təhsil səviyyəsinə nəzər saldıqda, məlum olur ki, bu kateqoriyadan olanlar ümumi işçilərin yalnız 10,1%-i təşkil edir ki, bu rəqəm ölkə üzrə 20%-dir. Aparılan araşdırmalar göstərir ki, iqtisadi rayonun kitabxanaçı-biblioqraf kadrların 7 (11,1%-i) şəhərlərdə, 614 nəfəri isə (88,9%) kənd yaşayış məntəqələrində fəaliyyət göstərən kitabxana resurslarını idarə edir və oxuculara informasiya xidməti göstərirlər. Şəhər yerlərində fəaliyyət göstərən kitabxana işçilərinin 26%-i ali və orta ixtisas təhsilli, kənd yerlərində işləyənlərin isə 73%-i bu kateqoriyadan olan mütəxəssislərdir. Orta ixtisaslı kadrların xüsusi çəkisi iqtisadi rayon üzrə olan göstəricidən (64,9 %) xeyli yüksəkdir (69,6%).

Şəki-Zaqatala iqtisadi rayonunun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala rayonları və Şəki şəhəri daxildir. İqtisadi rayonda 764 kitabxana var. Kitabxanaların 125-i (16,4%) şəhər yerlərində, 639-u (83,6%) kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. 385 kitabxana (50,3%) Mədəniyyət və Turizm Nazirliyinin, 342 kitabxana (44,7%) Təhsil nazirliyinin tabeliyində yerləşir. Kitabxanaların informasiya resursları 5515558 nüsxədir. İqtisadi rayon kitabxanalarında 640 nəfər mütəxəssis əhalinin informasiya təminatını həyata keçirir. Onların 42 nəfəri (6,6%) ali ixtisas, 51 nəfəri ( 8%) ali qeyri-ixtisas, 189 nəfəri (29,5%) orta ixtisas, 155 nəfəri (24,2%), 203 nəfəri (31,7%) isə ümumi orta təhsillidir. İqtisadi regionun bütün inzibati rayonlarında kitabxana mütəxəssislərinin təhsil səviyyəsinə görə bölgüsü zamanı ümumi orta təhsilli işçilərin çoxluq təşkil etməsi nəzərə çarpır. Bu kateqoriyadan olan işçilər aliu ixtisas təhsilli mütəxəssislərdən bir neçə dəfə çoxdur. Bəzi inzibati rayonlarda ali ixtisas təhsillilərin sayı, hətta 2 nəfərdən ibarətdir (Balakən rayonu).

Quba-Xaçmaz iqtisadi rayonunun tərkibinə Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən inzibati rayonları daxildir. İqtisadi rayonda 698 kitabxana var. Kitabxanaların 105-i şəhər yerlərində (15%), 593-ü kənd yaşayış məntəqələrində (85%) yerləşir. Kitabxana şəbəkələri 356-ı (51%) Mədəniyyət və Turizm Nazirliyi, 318-i (45,7%) Təhsil Nazirliyi tabeliyində fəaliyyət göstərir. Ümumilikdə, iqtisadi rayon kitabxanalarının informasiya resursları 4782603 nüsxədir. İqtisadi rayonun kitabxanalarında 569 nəfər mütəxəssis çalışır. Onların təhsil səviyyələrinə görə bölgüsü belədir: 26 nəfər (4,6%) ali ixtisas, 23 nəfər (4%) ali qeyri-ixtisas, 106 nəfəri (18,6%) orta ixtisas,78 nəfəri (13,7%) orta qeyri-ixtisas, 336 nəfəri (59,1%) ümumi orta təhsillidir. Bütün digər iqtisadi rayonlara xas olan xarakterik bir cəhət, burada da özünü göstərir. Belə ki, mütəxəssislər arasında ümumi orta təhsillilər yenə də çoxluq təşkil edir. Orta ixtisaslı mütəxəssislər də bu sahədə ikinci yeri tutur. Beləliklə, Quba-Xaçmaz iqtisadi rayonunun kitabxanalarında çalışan mütəxəssislər respublika kitabxana kadrlarının 6,5%-ni təşkil edir (10, 210).

Respublikamızın Dağlıq Şirvan iqtisadi rayonunun tərkibinə Ağsu, İsmayıllı, Qobustan, Şamaxı inzibati rayonları daxildir. İqtisadi rayonda 419 kitabxana fəaliyyət göstərir. Ağsuda 119, İsmayıllıda 126, Qobustanda 52, Şamaxıda 122 kitabxana əhalinin informasiya təminatını həyata keçirir. Respublika

kitabxanalarının təqribən 5%-i bu iqtisadi rayonun payına düşür. İqtisadi rayonda fəaliyyət göstərən kitabxanaların 43,7%-i Mədəniyyət və Turizm Nazirliyi, 53,4%-i Təhsil Nazirliyi sisteminin payına düşür. Dağlıq-Şirvan iqtisadi rayonunun informasiya resursları ölkə kitabxana-informasiya resurslarının 2,3%-i təşkil edir. Bu resursun 30,9%-i şəhərlərdə, 69,1%-i kənd yaşayış məntəqələrində toplanmışdır (11, 256). İqtisadi rayonda 292 kitabxana mütəxəssisi fəaliyyət göstərir. Onlardan 2,7%-i ali ixtisas, 5,1%-i ali-qeyri ixtisas, 19,9%-i orta ixtisas, 18,2%-i orta qeyri-ixtisas, 54,1%-i isə ümumi orta təhsilli kadrlardan ibarətdir. İqtisadi rayon üzrə kitabxana işçilərinin yaşayış məntəqələri baxımından yerləşməsinin təhlili nəticəsində müəyyən olunur ki, bunların 8 nəfəri ali ixtisas, 15 nəfəri ali qeyri-ixtisas, 58 nəfəri orta ixtisas, 53 nəfəri orta qeyri-istisas, 158 nəfəri isə ümumi orta təhsilli kadrlardır. İqtisadi rayona daxil olan bölgələr üzrə yalnız Qobustan rayonunda kənd yaşayış məntəqələrində ali təhsilli kadr yoxdur. Şamaxı şəhərində işçilərin 38,1%-nin ümumi orta təhsilli olması iqtisadi rayonun bu parametr üzrə orta göstəricisindən yüksəkdir və ciddi problem kimi öz həllini gözləyir.

Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları işğal olunmuş, torpaqlarımızın 20 faizindən çoxu zəbt edilmişdir. Dağlıq Qarabağ iqtisadi rayonunun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının və Xankəndi şəhərinin əraziləri tamamilə, Ağdam və Füzuli rayonlarının əraziləri isə qismən erməni işğalı altındadır. Bu səbəbdən Dövlət Proqramı çərçivəsində bu iqtisadi rayon üzrə, Ağdam və Füzuli rayonlarının işğal olunmamış ərazilərinin və Tərtər rayonunun inkişafına dair tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Hazırda 1482 kv.km ərazini əhatə edən bu üç rayonda 211,8 min əhali yaşayır. İqtisadi rayonda cəmi 608 kitabxana var. Kitabxanaların 166-ı (27,3%) şəhər, 442-i (72,7%) kənd yerlərində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 220 (36,2%), Təhsil Nazirliyinin tabeliyində 360 (59,1%) kitabxana var. Kitabxanaların informasiya resurslarının həcmi 2072714 nüsxədir (6, 23-56). Dağlıq Qarabağ iqtisadi rayonunun kitabxana mütəxəssislərinin sayı 560 nəfərdir. Onların 33 nəfəri (5,9%) ali ixtisas, 56 nəfəri (10%) ali qeyri ixtisas, 147 nəfəri (26,3%) orta ixtisas, 94 nəfəri (16,8%) orta qeyri-ixtisas, 230 nəfəri (41%) ümumi orta təhsillidir. Azərbaycan ərazisinin 7,5%-i, əhalisinin isə 2%-dən bir qədər çoxu Kəlbəcər-Laçın iqtisadi rayonunun payına düşür. İqtisadi rayona daxil olan bütün inzibati rayonlar erməni işğalı altında olduğundan həmin rayonların inkişafına dair tədbirlər də Dövlət Proqramı çərçivəsində nəzərdə tutulmamışdır. İqtisadi rayonda 381 kitabxana var. Onların 92-i (24,1%) şəhərdə, 289-u (75,9%) kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 123 (32,3%), Təhsil Nazirliyinin tabeliyində isə 258 (67,7%) kitabxanalar var. Kitabxanaların informasiya resursları 1055843 nüsxədir. İqtisadi rayonda 369 kitabxana mütəxəssisi var. Onların 23 nəfəri (6,2%) ali ixtisas, 61 nəfəri (16,5%) ali qeyri-ixtisas, 84 nəfəri (22,8%) orta ixtisas, 66 nəfəri (17,9%) orta qeyri-ixtisas, 135 nəfəri (36,6%) ümumi orta təhsilli kadrlardır.

Təhlillərdən aydın oldu ki, ölkənin müxtəlif regionlarında kitabxanaları ixtisaslı kadrlarla təmin edərək, kitabxana xidmətinin səviyyəsini yüksəltməklə uyğunsuzluqları aradan qaldırmaq olar. Eyni zamanda, yüksək ixtisaslı kitabxanaçı-biblioqrafların xidmət şöbəsində deyil, birbaşa kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına yardım etmələri daha məqsədəuyğun olar. Orta hesabla hər bir ixtiisaslı kadrın ən azı 1 ildən 5 ilə qədər iş stajının olması və onun bu sahədəki təcrübəsi, kitabxana-biblioqrafiya xidmətinin keyfiyyətinə müsbət təsir edən amillərdəndir. Yüksək ixtisaslı kitabxanaçı-biblioqrafların iş təcrübəsindən istifadə edilməsi də, gənc kadrların yetişməsində mühüm rol oynaya bilər.

Kitabxanada aparılan işlərin keyfiyyəti əhəmiyyətli dərəcədə kadrların hazırlanmasından və onların ixtisaslarının yüksəldilməsindən asılıdır. Yüksək ixtisaslı kitabxanaçı kadrlar mütərəqqi iş metodlarını tezliklə mənimsəyir, öz işinə tətbiq edir, əməyin keyfiyyətli olmasını təmin edirlər. Buna görə də əməyin elmi kompleksində kadrlarla aparılan işin yaxşılaşdırılması əhəmiyyətli yer tutur **(**8, 181**).**

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nda iqtisadi regionların gələcək inkişaf istiqamətləri, kadr potensialı ilə bağlı olaraq, həyata keçiriləcək vəzifələr sırasına aşağıdakılar daxil edilmişdir: peşə və ali təhsil sistemində islahatların gücləndirilməsi, o cümlədən kadr hazırlığının əmək bazarına uyğunlaşdirilması; elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsi; ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsi; regionlararası mədəni əlaqələrin möhkəmləndirilməsi, milli mədəniyyətin ümumdünya mədəni proseslərinə inteqrasiyası; kitabxana fondlarında müasir komplektləşdirmə mexanizminin yaradılması, kitabxanaların informasiya təminatı və ölkə üzrə kitabxana-informasiya kompyuter şəbəkəsinin yaradılma sı və inkişafı və s. (2).

Regionların iqtisadi inkişaf prosesinin ayrılmaz tərkib hissəsi olan, kitabxana-informasiya sahəsinin inkişafı və gələcək perspektivləri daim ölkə rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Bunu "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın gözlənilən nəticələri bir daha sübut edir. Ayrı-ayrı iqtisadi regionlarda və Bakı şəhərində kitabxana-informasiya resurlarından səmərəli istifadənin təşkilində peşəkar kadrların yeri və rolu kitabxanaların modernləşdirilməsi konteksində bəzi strateji vəzifələrin həyata keçirilməsini tələb edir:- "Azərbaycanın kitab abidələri" dövlət reyestrinin hazırlanması, milli informasiya resurslarının elektron daşıyıcılara köçürülməsi; əhalinin bütün təbəqələrinə kitabxana-informasiya xidməti səviyyəsinin yüksəldilməsi; kitabxanaların kadr təminatının yaxşılaşdırılması, bu məqsədlə fasiləsiz peşə təhsilinin təşkili və ixtisasartırma sisteminin təkmilləşdirilməsi; kitabxana-informasiya işinin təkmilləşdirilməsi üçün müasir idarəetmə sisteminin tətbiqi; fasiləsiz kitabxana-informasiya təhsilinin inkişafının prioritet istiqamət kimi nəzərə alınması.

Bu məqsədlə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin, Milli Kitabxananın, Respublika əhəmiyyətli kitabxanaların, mədəniyyət işçilərinin ixtisasartırma kursunun potensialından istifadə etməklə kitabxanaçı kadrların təkmilləşdirilməsi və yenidən hazırlanması prosesini sistemli çəkildə həyata keçirmək olar (3, 6-29).

Bu tədbirlərin həyata keçirilməsi çərçivəsində, işğal olunmuş rayon kitabxanalarının vəziyyəti haqqında, "Dağıdılmış sərvətlər, məhv olmuş kitabxanalar" adlı 3 dildə (Azərbaycan, rus, ingilis) materialların çap və elektron nəşrinin hazırlanması, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xarici ölkələrin ali məktəblərinin magistratura şöbələrində milli kitabxanaçı kadrların hazırlığının təşkili məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi; Respublika kitabxana mütəxəssisləri haqqında məlumat bazasının yaradılması və internetdə yerləşdirilməsi; Respublikada kitabxanaçı kadrlara tələbatın öyrənilməsi və məzunların yerləşdirilməsi sisteminin yaradılması və.s diqqətə çatdırılmışdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bakı, "Azərbaycan" qəz., 2004, 11 fevral.
2. «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı». Bakı: Nurlar, 2009, 184 s.
3. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal, 2008, № 2, s.6-29.
4. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında. Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, "Azərbaycan" qəz., 2007, 21 aprel.
5. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya, 1999, №1, s.3-16.
6. Kitabxanaların fəaliyyəti haqqında statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı., 2009, 88 s.
7. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə). H.2. Bakı: BDU, 2010, 432s.
8. İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə olunması: Dərslik. Bakı: Nurlar, 2009, 392 s.
9. İsmayılov N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, 2010, № 1, s. 67-78.
10. Bayramova İ.Z. Quba-Xaçmaz iqtisadi rayonunda kitabxana-informasiya resurslarının yerləşməsinin müasir vəziyyəti // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2010, № 3, s. 203-211.
11. Bayramova İ.Z. Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2011, № 2, s. 250-258.
12. Quliyev O.İ. Bakı şəhərində kitabxana resurslarının yerləşməsi və onun kadr təminatının müasir vəziyyəti. // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, 2010, № 2, s. 58-71.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ РАЗМЕЩЕНИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ И КАДРОВОЕ ОБЕСПЕЧЕНИЕ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**И.З.БАЙРАМОВА**

**РЕЗЮМЕ**

В статье на основе анализа и обобщения официальных статистических материалов исследовано современное состояние, темпы и пропорции размещения библиотечно-информационных ресурсов, а также кадровое обеспечение библиотек в регионах Азербайджанской Республики.

**Ключевые слова:** библиотечно-информационное обеспечение, информационные ресурсы, кадровое обеспечение, матерально-техническая база библиотек

## CONTEMPORARY CONDITIONS OF SETTING OF LIBRARY-INFORMATION RESOURCES AND PRESENT SITUATION OF THEIR STAFF PROVISION IN THE REGIONS OF THE AZERBAIJAN REPUBLIC

**I.Z.BAYRAMOVA**

**SUMMARY**

On the basis of the analysis and summary of the official statistical materials, the contemporary conditions, temps and proportions of settling library-information resources, as well as their staff provision in the regions of the Azerbaijan Republic are researched.

**Key words:** library-information provision, information resources, current status, location status of information resources